# BÖYÜK ANA OBRAZI

## *Yazıçı publisisit Sevda Əlibəylinin "İlk poliqrafçı alim" kitabında*



İnsan talelərinin fərdiliyi, insan talelərinin bənzərsizliyi haqqında psixoloqların, filosofların, yazıçıların hətta təbiblərin-həkimlərin dəqiq elmi tədqiqatlara əsaslanan düşüncələri var. Hətta belə deyirlər ki, zahirən oxşar olan iki nəfəri tapmaq olar, amma xarekterinə görə eyni olan iki nəfəri tapıb bir yerdə kosmosa göndərmək mümkün deyil. Yəni, xarekter o qədər orijinaldır, həyatdan gələn elə keyfiyyətlərlə fərqlənir ki, iki nəfərdə bir-birinin üzərinə düşən məqamlar demək olar ki, yoxdur.

Şəddad Cəfərovu yetirən mühitdən, onun nəsil şəcərəsindən söhbət açırıqsa, demək onun təbiətindəki keyfiyyətləri həm ata tərəfdən, həm də ana tərəfdən gələn irsi əlamətləri ilə təbiətini xarekterizə etməliyik. Çünki, insan həyatdan, ictimai mühitdən, tərbiyədən aldığı nə varsa, hamısını irsən öz nəslindən qəbul etdiyi keyfiyyətlər əsasında formalaşdırır. Bir az da dəqiq desək bünövrə irsi əlamətlər hesab olunur.

Şəddad Cəfərovun bir şəxsiyyət kimi formalaşması yolunda onun ata tərəfdən gələn yolunu kifayət qədər aydınlaşdırmağa, öyrənməyə çalışmışıq. Və xarekterin təbiətinin formalaşmasında bu xətti müəyyən mənada yazıya gətirmişik. Axı hər bir şəxs irsi olaraq təkcə atanın məhsulu deyil. O, həm də bir çox keyfiyyətlərinə görə həm də ananın məhsuludur.

Şəddad Cəfərovun anasının adı Nəsibədir. Ümumiyyətlə ədəbiyyat, ictimai fikir tariximizdə, incəsənətdə Nəsibə obrazı demək olar ki, həmişə ülviyyət, müqəddəslik mahiyyəti kəsb edib.

Azərbaycan xalqının görkəmli şairi, böyük sənətkarımız Söhrab Tahirin anasının adı Nəsibə idi. Bu ad Söhrab Tahir Azərbaycana bir sənətkar, bir şair kimidoğulandan (1945) üzü bəri Azərbaycan ədəbi-mənəvi mühitində parlamağa başlayıb. Bir sözlə, ad ictimai məzmun kəsb edib Nəsibə adı ötən əsrin düz ortalarına üzü bəri böyük ana obrazının adına çevrilib. Şəddad Cəfərovun həyatının enişli-yoxuşlu yollarında onun özünün iradəsi, insani təbiəti nə qədər güc mənbəyi olubsa, bir o qədər də onun ailə dəyərlərinə tapınmaq sədaqəti böyük əhəmiyyət kəsb edib. Demək onun anası Nəsibə xanımın kimliyi əslində övladlarının, o cümlədən, Şəddad müəllimin də xarekterində bu və ya digər dərəcə də öz təsirini göstərib.

Nəsibə ana haqqında iki kiatab da kifayət qədər məlumat verilib. Bunlardan birincisi yazıçı dramaturq Fatma Həsən qızının "Acılışirinligünlər" sənədli romanıdır. Bu romanda Nəsibə ana nəcib keyfiyyətləri ilə, sevgiyə sədaqəti, ailə həyatına bağlılığı, öz övladları yolunda hər cür cəfaya dözməyə hazır olduğu, bir sözlə, fədakar bir ana obrazı kimi təqdim olunur. Biz "Acılı şirinli günlər" romanında Nəsibə ananın tanıdığımız bizə doğma olan bir insan kimi görürük. Bu sənədli romandakı Nəsibə ananın o qədər həssas, o qədər duyğulu, sözün həqiqi mənasında bütün dünya ilə mübarizədə öz abrı, isməti ilə mübarizə aparan bir insan kimi görürük ki, bu da, biz də xüsusi bir yanaşma hissi təlqin edir.

Şəddad Cəfərovun anası Nəsibə xanımın obrazın, əslində, bir yazıda ehtiva etmək çətindir. Ona görə də biz məsələni yazı müstəvisinə gətirməkdə təmkinli yanaşmaya üstünlük verməliyik; yəni bu yazıda yazıçı, publisist Sevda Əlibəylinin "İlk poliqrafçı alim" kitabına istinad etməyi daha münasib bildik. Sevda

Əlibəyli öz kitabında yazır: "Əsilli-nəcabətli toxum hər gün, hər yerdə cücərmir. Kənddə və şəhərdə cücərməsindən asılı olmayaraq orda qollu-budaqlı ağaca çevrilir, sağlam bar verir". müəllifin bu cümlələrinə təsadüfi yanaşmaq olmaz. Bu ikicə cümlənin içərisində müəllif əslində bütöv bir nəslin taleyini müəyyən edən məqamlara sətir altıda olsa toxunur, və həssas münasibət göstərir; bu münasibət o qədər dərəcədə həssas və diqqət çəkicidir ki, oxucunu da kifayət qədər düşündürür".

Nəsibə taleyinə görə bolşeviklər tərəfdən min bir əzab-əziyyət görmüş qadınların ən xarekterik nümayəndələrindən biridir. Çünki onun hələ qızıl gül kimi açılan, pardaxlanan zamanında rejim caynaqları ilə onun talehinin üstünə çökür. Beləliklə hələ gənclik ömrünü kifayət qədər yaşamamış olan bir gəlin ailəyə olan müdaxilə ilə sonsuz istirablara məruz qalır. yazıçı Sevda Əlibəyli publisistik yüyrəkliklə hadisələri çəngələyib yazısının ovcuna yığır. Biz baş verən hadisələrin məhz ən qaynar yerinə düşürük: " Tale bu əsilli-nəcabətli ailəni gah kəndli edib, gah şəhərli. Babası Hüseyn kişi 1927-ci ildə Sibirə sürgün ediləndə oğlu Muğdat da onunla gedir. Altı aylıq Sibir sürgünündən sonra bir müddət Qazaxıstanda qalası olurlar. Sonra Bakıya qayıdırlar. Ailə, qohum-qardaş kənddə qaldığından kəndə qayıdırlar. Gərmətük kəndində yeni təşkil olunmuş kolxoza üzv olurlar. Lakin kolxozun rəhbərliyinin kulak damğası gəzdirənlərə pis münasibətini görəndə əlləri işdən soyuyur. Yenidən Bakıya qayıdıb orda məskunlaşmaq qərarına gəlirlər. Hüseyn kişi Bülbülə kəndində bir ev kirayə edir. Kəndə gedib arvadı Ağabanunu, Muğdatla gəlini Nəsibəni Bakıya gətirir. Hüseyn kişiylə (1933) Ağabanu xanım (1956) ömürlərinin sonuna kimi Bakıda yaşayırlar. Dünyalarını da burda dəyişirlər. Son mənzilləri də buradadır". Bu qeydləri oxuduqca müəllifin fakt zənginliyinə məhz faktın özündən çıxış eləməklə, insanların talelərinə münasibətini də görürük. Əlbəttə, bu müxtəsər qeydlərin içərisində biz, ən müxtəlif adlarla tanış oluruq. Nəsibə ananın - əlbəttə, gənc ananın tale yolundakı bu qeyri insani zorakılıqların mahiyyətini ürək ağrısı ilə yaşayırıq. Qısa qeydlərin arasında hər ili bir əsrə bərabər olan insan taleləri ilə bağlı zamanı təsəvvür etmək özü bir məşəqqətdir. Əlbəttə, bizi maraqlandıran obraz bura da hadisələrin mərkəzindədir. Ailənin taleyi keçmiş Sovet lagerinin uzaq Qazaxıstandan keçən yolunu dolanıb gəlir. Ancaq, ərini və oğlunu Sibirə (Qazaxıstana) yola salmış Ağabanu və qaynatası ilə birgə əri Muğdatı o vaxtın dili ilə desək, gedər-gəlməzə aparan rejimin təhdidi ilə yola salmış Nəsibənin taleyi artıq dumanlara qovuşmuşdur. Doğrudur. Nəsibə bu zaman övlad sahibiydi ana idi. amma hər halda özündən əvvəl qaynanası vardı. İki qadının baş-başa verib tale ilə döyüşməsi sözün həqiqi mənasında bir azərbaycanlı xarekterindən xəbər verirdi. Onlar həqiqətin, haqqın qalib gələcəyinə inamla yaşayırdılar. Cənub mühitinin böyütdüyü Hüseyn kişi, atasını tək buraxmayıb onunla sürgünə yollanan gənc Muğdat şübhəsiz iradələri ilə sağlam fiziki gücləri ilə həyatın bu zülm və əzablarına dözə bilir və geriyə qayıdırlar.

İndi artıq kənddə yaşamaq mümkün deyildi. Onlar Bakıya köçürlər. bülbülə qəsəbəsində məskunlaşırlar. Bütün bu köçmələr, köçürülmələr zamanında biz Nəsibə ananı sözün həqiqi mənasında ərinə sədaqətli onu böyüdən mühitin dəyərlərinə sahib kimi görürük.

Yazıçı publisist Sevda Əlibəylinin kitanbında bir ailənin taleyi ilə bağlı tarixin, yeni dönəmini yenə faktlar əsasında görürük: "Bülbülə şəhərdən aralı olduğundan Muğdat şəhərdə - indiki Təzə bazarın yaxınlığında həyət alıb ev tikdirir. Ailə təzə evə köçür. 1940-cı ilin qarlı qış günlərində ailədə yeni körpə dünyaya gəlir. Xudadat, Ağadat, Suğradan sonra yeni körpə evin dördüncü uşağı olur".Nəsibə artıq üç uşaq anasıdır. Və artıq zamanın təzə küləkləri əsməkdədir. Bu zaman kimin taleyinə hansı havanı gətirəcək; bu hələ məlum deyil. Və yəqin ki, elə səhəri dumanlarla açılacaq həmin günlərin birində Nəsibə ananın yeni övladı dünyaya gəlir: "Qonşuluqlarındakı övladsız bir qadının - Həvva xalanın qəlbini qırmayıb onun arzusuyla uşağın adını Şəddat qoydular. Mənası - zalım şah. Savadsız qadın adın mənasından xəbərsizdi. Yəqin ki, atası Muğdatın, qardaşları Xudadatın və Ağadatın adına uyğunlaşdırıbmış". Əgər belə demək mümkünsə yeni övladlaNəsibə ananın ömrünün gələcək zamanlar üçün hesablanan tarixində yeni bir dövr başlayır. Hələ heç kim deyə bilməzdi ki, bu ailənin talehində dünyaya gələn uşaq Nəsibə ananın adını daha çox məşhur edəcək. heç kim deyə bilməzdi ki, Nəsibə ana ilk poliqrafçı alimin anası olacaq. Azərbaycanın ən görkəmli naşirinin anası olacaq. Azərbaycanın müdrik yazıçı-jurnalist-publisist kitab çapı sayəsində nadir mütəxəssinin anası olacaq. Onun bu gün məşhur olan Şəddad adı - bu adla tanınan görkəmli ictimai-xadimin böyük fikir adamının kimliyi Nəsibə ananın adını hər vaxt yada salacaq: "Bu uşaq Şəddat kimi tanınıb məşhurlaşır. Bir də ki, adı qoyulandan bu günədək ailədə və qohumlar arasında ona "Şahi" deyə müraciət edirlər. Anasının əzizləyərək "Şahi balam" deməsi hamının dilinə də yatır, ürəyinə də. Əslində "Şahi" Şəddata heç uyğun gəlmir. Adın qısaldılmasıydısa, onda gərək"Şədi" deyəydi. Ananın nəfəsi haqqdan gəlibmiş". Ad şərti bir məfhumdur. Heç kim deyə bilməz ki, qoyulan ad insanın taleyində həll edici rol oynayır. Ancaq hər kəs böyüdükcə adının mahiyyətini dərk etdikcə bu adın təlqin etdiyi ən üstün keyfiyyətin daşıyıcısına çevrilir. Şübhəsiz Şəddad müəllim də öz adı haqqında yəqin ki, çox düşünüb. Bu adın "Zalım şah" obrazını yaddaşından dəfələrlə keçirib. Bəlkə də, elə onun təbiətindəki humanizmin ailədən, atadan-anadan gələn təlqinlərdən başqa adının cəmiyyətdə bəraəti uğrunda mübarizəsi də mühim əhəmiyyət kəsb edib. Sevda Əlibəyli bu məqamı çox dəqiq tutur: "Erkən yaşlarından boynuna ağsaqqallıq, müdriklik düşən Şəddat sanki bütün nəslin adil şahı oldu. Ana övladlarının hər biriylə öyünürdü. Amma Şahinin yeri ayrı idi ürəyində. Hər yerdə fəxarətlə: "Bir Şahi balam var, tanısanız özünüz görəcəksiniz necə oğuldur!" deyirdi". Görünür ana da bu nigarançılığı öz hisslərində, duyğularında yaşayıb. Və elə Sevda Əlibəyli də yəqin ki, elə bu məqamə diqqətdə saxladığından beləcə yazıb: "Ana Şahi balasının cəmiyyətdəki yerini, özü də fərəh və iftixar doğuran yerini görəndə ömrünün ağrı-acılarını unudurdu. Oğul da eyni məhəbbətlə ona sanki səcdə edirdi: "Sən Allahın kölgəsisən, mən sənin, ay Ana!" (Paşa Qəlbinur)". Sevda Əlibəylin görkəmli şairimiz Paşa Qəlbinurun düşüncələrinə istinadı təsadüfi deyil. Çünki, fikir şairi Paşa Qəlbinur da məlum misrasında ana haqqının üstünlüyündən danışır, ana haqqının müqəddəsliyindən danışır. Sevda Əlibəylinin yaratdığı Nəsibə ana obrazı təkcə döyüşkən mübariz kişi qeyrəti ilə görünmür. O həm də, nigaran ana təbiəti ilə görünür. Və bu zaman öz ərini İkinci Cahan savaşına yola salan və övladları ilə baş-başa qalan ana obrazını görürük: "Ailənin işləri yenicə qaydasına düşür, üzləri gülür. Dünyanı sarsıdan amansız müharibə xəbəri bu ailəni də sarsıdır. Muğdatı cəbhəyə aparırlar. Ailə yenə başsız qalır. Nəsibə evlərinə yaxın olan tikiş fabrikində işə girir. Ağabanu uşaqlara baxır. Başsız qalan ailədə dörd uşaqla Bakıda yaşamaq çətin olur qadınlara. Həm də faşistlərin hər dəqiqə Bakıya yaxınlaşmaq qorxusu onları da qorxuya salır. Odur ki, yenidən uşaqları yığıb Gərmətükə - el-oba yanına köç edirlər. Nəsibə kənd qadınlarına qoşulub kolxozun bicar sahələrinə çəltik əkməyə gedir. Ağabanu uşaqların qayğılarıyla məşğul olur, həyət-bacanı əkir, toyuq-cücə saxlayır". Nəsibə ananın taleyi azərbaycan anasının taleyidir. Onun qeyrəti, hünəri mənsub olduğu xalqın, Vətənin təbiətindən güc alır. O, ona görə dünya əzablarının hamısına sinə gərə bilir ki, onun ruhunu, varlığını ümid tərk eləmir. O, son ana qədər ömür-gün yoldaşı Muğdatı həmişə gözünün önündə görür. Hər nə bir iş görsə xəyalən onunla məsləhətləşir. Onunla birgə tənhalıq ömrü yaşayır, ancaq tək olmur, Muğdatı həmişə öz yanında görür. Onu öz varlığında hiss edir. Böyütdüyü balalarının boyuna baxdıqca təkcə özü sevinmir. Həm də əri Muğdatın əvəzindən də sevinir. Axır ki onun da sevindiyi bir gün gəlir: "Ölkədə müharibə bitir. Ölən ölür, itən itir. Muğdat isə sağsalamat qayıdır. Ailənin çırağı yenidən yanır. Uşaqların sağ-salamat böyüdüyünü görəndə sevincdən uçmağa qanadı olmur. Boyu bərabərinə çatan Xudadatı az qala tanıya bilmir. Ağadat, Suğra, Şəddat da böyüyüblər. Körpəykən ayrıldığı Şəddat qəşəng bir oğlan olub. Müharibədən sonra kənddə Muğdatın bir oğlu da olur. Bu uşağın adı nə atasının, nə də qardaşlarının adına uyğunlaşdırılmır. Özünəməxsus adı olur - Əbdülmanaf. Sonra Fərhad, daha sonra Rəziyə adlı övladları gəlir dünyaya". Beləcə bir ana taleyinin epopeyası ilə üz-üzə qalırıq. Onun böyütdüyü övladları hər biri sözün həqiqi mənasında Azərbaycan adlanan məmləkətin ləyaqətli övladları olaraq tanınır. Ancaq, bu yerdə bir az elə Sevda Əlibəylinin qeydinə uyğun olaraq Nəsibə ananın gələcəyinə çox inandığı Şəddad obrazına yenidən qayıtmaq elə o böyük ananın ruhunu da sevindirmək demək olardı: "Bakıda doğulub kənddə böyüyən Şəddat kənd məktəbinin birinci sinifinə gedir. Bu uşağı məhəllədə də, məktəbdə də hamı sevir. Kəndin müdrik adamları, yaşlı sakinləri fərasətli, diribaş uşağın gələcəyinə ümidlə baxırlar. Müharibədən sonra kənddə yaranan qıtlıq və digər çətinliklər Muğdatı yenidən Bakıya qayıtmağa məcbur edir". Əgər belə demək mümkünsə, bu yerdə nağılın yazıçı Sevda Əlibəylinin təfsirinə bağlı olan tərəf sona çatır.

Görünür, ən möhtəşəm nağılların belə müxtəlif məzmunu var. Bu Nəsibə ana haqında nağılın Sevda Əlibəylinin təfsiri ilə gələn tərəfi idi.

***Ceyhun ZALLI***
***19.04.2021***